# Paris Science Po İnstitutunun tələbələri regiondakı reallıqlarla bağlı məlumatlandırılıblar

**Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva bu ölkənin ən nüfuzlu ali təhsil ocağı olan Siyasi Elmlər İnstitutunun (Science Po de Paris) tələbələri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüş bu institutda müxtəlif ölkələrdən olan tələbələrin yaratdığı BMT-nin Siyasi Elmlər Assosiasiyasının xahişi ilə təşkil olunub.

Mədəniyyət Mərkəzində keçirilmiş görüşdə səfir Azərbaycanın zəngin tarixi və mədəni irsi, xarici siyasəti və regionda yaratdığı yeni reallıqlar haqqında danışıb. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın beynəlxalq aləmdə oynadığı mühüm rolu, ölkəmizin regionun lider dövləti olması, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmaq siyasəti, milli iqtisadiyyatın gücləndirilməsi haqqında ətraflı məlumat verilib. Azərbaycanın Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində, hələ ötən əsrin sonlarında ölkəmizin Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsindəki rolundan, beynəlxalq dəhlizlərin qovşağı olmasından danışılıb.

Azərbaycan torpaqlarının 30 il işğal altında qaldığını xatırladan diplomat bu müddət ərzində ölkəmizin münaqişəni dialoq yolu ilə həll olunmasına çalışmasından bəhs edib. Bildirilib ki, bu müddətdə münaqişənin həlli həvalə edilmiş qrupun səyləri nəticə verməyib, Ermənistanın təxribatları qarşısında səbir kasası daşan Azərbaycan ərazilərini güc yolu ilə azad etmək məcburiyyətində qalıb.



Ümummilli Lider Heydər Əliyevin XX əsrin sonlarında müstəqilliyini bərpa edən ölkəmizin xilaskarı və memarı olmasından, ölkə iqtisadiyyatını yenidən dirçəltməsindən danışan səfir Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun sayəsində torpaqlarımızın azad edildiyini, ölkəmizin regionda yeni reallıqlar yaratdığını, onun sülh niyyətində olduğunu diqqətə çatdırıb. 2020-ci ildə torpaqlarımızın işğaldan azad edildiyi və 2023-cü ildə isə dövlət suverenliyimizin tam bərpa edildiyi auditoriyanın diqqətinə çatdırılıb. Hazırda Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində fəaliyyətin davam etdiyi vurğulanıb.

Səfir L.Abdullayeva Azərbaycanın Fransa, ABŞ, Rusiya, Türkiyə, həmçinin Avropa İttifaqı və digər ölkələrlə münasibətləri, COP29-un nəticələri, "yaşıl enerji"yə keçid, Azərbaycan cəmiyyətində qadınların rolu və digər mövzularda tələbələrin suallarını cavablandırıb.

Qeyd edək ki, Paris Science Po İnstitutu yanında fəaliyyət göstərən BMT-nin Siyasi Elmlər Assosiasiyası tələbələrlə səfirliklər, beynəlxalq təşkilatlar və diplomatlar arasında dialoq üçün platforma rolunu oynayır, beynəlxalq münasibətlər və diplomatiya ilə bağlı konfrans və debatlar təşkil edir.

Azərbaycan.- 2025.- 6 aprel (№ 66).- S.5.